

Məhəmməd BİRİYA

**VƏTƏN**

“Biriya”, könlüm olub aşiqi-rüxsari vətən,
Başıma düşdü yenə nəşeyi-gülzari vətən.

Hər ürək bir qəmə dünyada giriftar oldu,
Varmı bir qəlbi-mübarək, ola qəmxari-vətən.
Hər mərəz oldu əgər qabili-dərman – o, əlac,
Hər rəva gördü, şəfa tapmadı bimari-vətən.

Vətənin oğlunu qürbətdə ölüm dərk eləsə,
Can verər tazədən övladına didari-vətən.

Dəyişər məzhəb-o tarix, nəsil, hökmi-zaman
Dəyişilməz yaradan haqq kimi asari-vətən.

Şairəm, xəstə diləm, yurdumu istər ürəyim,
Bağlıdır taleyimə taleyi-əfkari-vətən.

